UOT 336.714

*Şəhla Yasin qızı ƏLİYEVA*
*Azərbaycan Texnologiya Universitetinin doktorantı*

# İNVESTİSİYALARIN İQTİSADİ MAHİYYƏTİ VƏ İQTİSADİ EFFEKTLƏRİ NƏZƏRİ ARAŞDIRMALAR KONTEKSTİNDƏ

***Xülasə***

Məqalədə investisiyaların iqtisadi mahiyyəti, növləri və funksiyaları ilə bağlı nəzəri araşdırmalar apararaq investisiyaların cəmiyyətdə baş verən iqtisadi proseslərə təsiri, yaratdığı effektlər qiymətləndirilir. Eyni zamanda investisiyaların iqtisadi proseslərə təsiri xüsusiyyətləri nəzərdən keçirilərək investisiyaların iqtisadi effektlərinə xüsusi diqqət yetirilir. İnvestisiyaların makro və mikro səviyyələrdə funksiyaları müəyyənləşdirilir.

***Açar sözlər: investisiya, kapital, maliyyə, kapital qoyuluşu, fond.***

## *Giriş*

Yüksək iqtisadi artım tempinə nail olmaq məqsədi istənilən dövlətin prioritet vəzifələrindən biridir. Bu vəzifənin uğurlu həlli davamlı sosial-iqtisadi inkişafa, əhalinin rifahının yüksəlməsinə səbəb olmaqla yanaşı, milli iqtisadiyyatın dünya iqtisadiyyatında yeri və rolunu da müəyyənləşdirir.

Nəzərə almaq lazımdır ki, bütün bunlara vəsait yatırılmadan nail olmaq qeyri-mümkündür, yəni investisiya qoyuluşları tələb olunur. Bütün bunlar belə deməyə əsas verir ki, investisiyaların cəmiyyətdə gedən proseslərə ciddi təsir vasitəsi kimi rolu, bu təsirin bütün xüsusiyyətləri, ictimai istehsalın həcmi, məşğulluq səviyyəsi, iqtisadiyyatda struktur irəliləyişləri, xalq təsərrüfatının ayrı-ayrı sahələri və bütünlükdə inkişafına təsir ilə bağlı elmi araşdırmalar xüsusi aktuallıq kəsb edir.

İnvestisiyalar cəmiyyətdə baş verən iqtisadi proseslərə ciddi təsir göstərməklə yanaşı, çoxcəhətli effektləri də vardır. Bunlar iqtisadi, sosial, ekoloji və bir sıra digər effektlər kimi diqqəti cəlb edir, eyni zamanda investisiyalar iqtisadi münasibətlər sisteminin makro və mikro səviyyəsində mühüm rol oynayaraq iqtisadi inkişaf və istehsalın modernləşdirilməsinin mühüm mənbəyi kimi çıxış edir.

**İnvestisiyaların mahiyyəti, növləri və funksiyaları ilə bağlı nəzəri dəyərləndirmələr**

Bütünlükdə cəmiyyətin və onun ayrı-ayrı təsərrüfat subyektlərinin inkişafı maddi dəyərlərin geniş təkrar istehsalı prosesində milli sərvətin artmasının təmin olunmasına əsaslanır. Bu məqsədə nail olunması isə bilavasitə investisiyalarla bağlıdır.

"İnvestisiya" termini latın mənşəli sözdür, hərfi mənası "yatırmaq", "qoymaq", "geyindirmək" mənasındadır.

İnvestisiya anlayışının məzmununun klassik ifadəsi Vilyam Şarpa məxsusdur. O, hesab edirdi ki, investisiya yatırmaq gələcəkdə daha çox pul qazanmaq üçün pullardan ayrılmaq deməkdir [1].

Özünün geniş məzmununda investisiya-sonradan böyüməsi nəzərdə tutulan kapital qoyuluşudur. Lakin burada artım elə bir səviyyədə olmalıdır ki, investor cari dövr ərzində öz vəsaitlərinin istifadəsindən imtina etməsi və risk müqabilində mükafatlandırılmaqla yanaşı, inflyasiya prosesləri ilə bağlı itkilərini də kompensasiya edə bilməlidir .

İnvestisiya anlayışının belə bir məzmunda şərhi tərəfdarları kimi V.V.Boçarov, M.İ.Knış, İ.A.Blank [2] və b. göstərmək olar. İnvestisiya termininin yuxarıda göstərilən məzmununa yaxın şərhlərə Lorens C.Gitman və Maykl C.Connun "İnvestisiya qoyuluşlarının Əsası" dərsliyində rast gəlmək mümkündür [3]. Bu dərslikdə investisiya qoyuluşları kapitalın elə bir yerləşdirmə formasıdır ki, onun vasitəsi ilə kapitalın saxlanılması və dəyərinin böyüməsi baş verərək, müsbət ölçüdə gəlir əldə edilməsinə imkan yaradır.

İnvestisiyaların normativ- qanunvericilik sənədlərində məzmunu əsas kapitala vəsait yatırımları kimi təsbit olunur. Həmin vəsaitlər mövcud istehsal güclərinin bərpası ilə yanaşı yeni istehsal güclərinin də formalaşması ilə bağlı sərf edilən maddi vəsaitlərdir. Qeyd etmək lazımdır ki, əsas kapital ilə yanaşı investisiyalar dövriyyə kapitalına (real investisiyalar) və müxtəlif maliyyə alətlərinə (səhmlərə, qiymətli kağızlara və s) sərf edilə bilər və belə olan təqdirdə burada söhbət maliyyə investisiyalarından gedir. Göründüyü kimi, investisiyalar daha geniş anlayışdır və bu anlayışı kapital qoyuluşu anlayışı ilə eyniləşdirmək olmaz.

Müvafiq olaraq investisiyaları kapital qoyuluşu, maliyyələşdirmə və bir sıra digər anlayışlardan fərqləndirən cəhətlərə diqqətin yetirilməsi məqsədəuyğun olardı. İnvestisiyaları digər yaxın məzmunlu anlayış və kateqoriyalardan fərqləndirən bir sıra spesifik xüsusiyyətlər vardır:

- gəlir gətirməsi investisiyaların potensial qabiliyyəti kimi çıxış edir;
- investisiyalaşdırma prosesində adətən toplanmış kapitalın bir hissəsinin iqtisadi subyektin alternativ aktivlərinə çevrilməsi baş verir;
- kapital qoyuluşunun məqsədəuyğun xarakter daşıması;
- vəsaitlərin yatırılmasının müəyyən müddəti əhatə etməsi;
- cari tələbatların təmin edilməsindən uzaqlaşma və perspektiv tələbatlara yönəldilmə;
- risk və ehtimalların mövcudluğu.

Qeyd etmək lazımdır ki, müasir dövrdə iqtisadi praktikada investisiyaların müxtəlif növ və formaları diqqəti cəlb edir. Belə bir kontekstdə investisiya növlərinin təsnifatı məsələsinə qısa da olsa nəzər yetirilməsi məqsədəuyğun olardı [4]. Ümumiyyətlə, investisiyaların bir neçə kriteriyaya əsasən təsnifatı aparılır (investisiya obyektinə; mülkiyyət formalarına; investisiya risklərinin səviyyəsinə, iqtisadi tsikllərə, investorun investisiya layihəsində iştirakı səviyyəsinə, gəlir səviyyəsinə).

***İnvestisiya obyektinə*** müvafiq olaraq investisiyaların aşağıdakı növləri diqqəti cəlb edir:

- real investisiyalar (fiziki aktivlərə investisiya qoyuluşları);
- maliyyə investisiyaları (portfel);
- qeyri-maddi aktivlərə investisiya qoyuluşları.

***Mülkiyyət formalarına görə*** investisiyaları - xüsusi, dövlət, xarici və müştərək investisiyalara; ***investisiya risklərinin səviyyəsinə*** görə investisiyaları risk səviyyəsi aşağı, orta və yüksək olan investisiyalara; ***iqtisadi tsikllərə*** görə investisiyaları - ilkin, ekstensiv və təkrar (reinvestisiya) investisiyalara; ***İnvestorun investisiya layihəsində iştirakı səviyyəsinə*** görə - birbaşa və dolayısı investisiyalara;

***Gəlir səviyyəsinə görə investisiyaları***- yüksək gəlirli, orta gəlirli, az gəlirli və gəlir gətirməyən investisiyalara; ***likvidlik səviyyəsinə*** görə investisiyaları - yüksək likvidli; orta likvidli, aşağı likvidli investisiyalara; investisiya yatırımları dövrünə görə - uzunmüddətli, ortamüddətli, qısamüddətli investisiyalara və s. bölürlər.

İnvestisiyaların mahiyyəti və əhəmiyyəti onların müasir iqtisadiyyatdakı funksiyalarını özündə əks etdirir (şəkil 1).

Makrosəviyyədə investisiyaların aşağıdakı funksiyalarını xüsusi olaraq qeyd etmək olar:

- İstehsal və qeyri-istehsal sahəsində əsas fondların sadə və geniş təkrar istehsalı prosesi;
- Dövriyyə kapitalı ilə təminat və əlavə vəsaitlərin daxil olması prosesi;
- Maliyyə aktivlərinin satın alınması ilə kapitalın bir sferadan digərinə axını;
- Səhmlərin satın alınması və digər müəssisələrin aktivlərinə vəsait yatırılması ilə kapitalın mülkiyyətçilər arasında bölünməsi.

Yuxarıda göstərilən funksiyaları makrosəviyyədə yerinə yetirərək investisiyalar bir sıra müsbət effektlərin əldə olunmasına səbəb olur:

- geniş təkrar istehsal siyasəti həyata keçirilir;
- elmi-texniki tərəqqi sürətləndirilir, ölkədə istehsal edilən məhsulun keyfiyyəti yaxşılaşdırılır, rəqabətqabiliyyətliliyi yüksəldilir;








***Şəkil 1. İnvestisiyaların funksiyaları.***

***Mənbə:*** *müəllif tərəfindən tərtib olunmuşdur.*

- ictimai istehsalda struktur dəyişiklikləri baş verir və xalq təsərrüfatının bütün sahələri tarazlaşdırılmış halda inkişaf edir;
- sənaye istehsalı üçün zəruri xammal bazası yaradılır;
- mülki obyektlərin, səhiyyə, mədəniyyət, təhsil və digər sosial təyinatlı obyektlərin tikintisi həyata keçirilir;
- işsizlik problemi qismən həll olunur;
- ətraf mühitin qorunması və bütünlükdə ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində müvafiq işlər görülür.

Qeyd etmək lazımdır ki, real kapitalın böyüməsinə yönəldilmiş investisiyalar (maşınların, avadanlıqların alınması, bina və tikililərin, mühəndis qurğularının modernləşdirilməsi və s.) iqtisadiyyatın istehsal potensialının güclənməsinə səbəb olur.

İstehsal və yeni texnologiyalara investisiyalar sərt rəqabət mübarizəsinə davam gətirməyə, bir addım irəliyə doğru irəliləməyə, bazar konyunkturasındakı dəyişikliklərə, qiymətlər dəyişikliyinə daha çevik reaksiya verməyə imkan yaradır.

Makroiqtisadi masştabda cari rifah halı dünənki investisiyaların nəticəsi kimi qiymətləndirilə bilər. Müassir dövrdə investisiya qoyuluşları sabah, yəni gələcəkdə ümumi daxili məhsulun artmasına, daha yüksək rifah səviyyəsinin əldə olunmasına imkan yaradır. Beləliklə, investisiyaların əhəmiyyəti iqtisadi artıma nail olunmasında olduqca böyükdür.

Mikrosəviyyədə investisiyalar hər şeydən öncə aşağıdakı məqsədlərə nail olunmasına xidmət edir: istehsalın genişlənməsi və inkişafı; əsas istehsal fondlarının həddindən artıq mənəvi və fiziki aşılanmasına yol verilməməsi; istehsalın texniki səviyyəsinin yüksəldilməsi; konkret müəssisənin istehsal etdiyi məhsulun keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin yüksəlməsi; ətraf mühitin qorunması tədbirlərinin həyata keçirilməsi; qiymətli kağızların əldə olunması və digər müəssisələrin aktivlərinə vəsaitlərin yatırılması.

Göründüyü kimi, son nəticədə investisiyalar müəssisələrin gələcəkdə sabit fəaliyyət göstərməsinə, müəssisələrin sabit maliyyə vəziyyətinin təmin olunmasına və mənfəətinin mütləqləşdirilməsinə xidmət edir.

Belə bir kontekstdə mikrosəviyyədə investisiyaların funksiyalarına aşağıdakıları aid etmək olar:

- əsas fondların bütün fəaliyyət sferalarında həddindən artıq mənəvi və fiziki aşınmasına yol verilməməsi;
- yüksək səmərəli fəaliyyət sferalarının genişlənməsi və inkişafı;
- istehsalın texniki səviyyəsinin yüksəldilməsi, istehsal edilən məhsulların və göstərilən xidmətlərin məsrəflərinin azalması;
- məhsulun keyfiyyətinin və rəqabətqabiliyyətliliyinin yüksəlməsi;
- dövriyyə vəsaitlərinin artırılması.

**Müasir dövrdə investisiyaların iqtisadi proseslərə təsiri xüsusiyyətləri**

İnvestisiyalar iqtisadi proseslərin inkişafında əhəmiyyətli rol oynayır. Eyni zamanda investisiyalar müəssisələrin əsas fondlarının geniş və təkrar istehsalını təmin edir, iqtisadi, sosial və ekoloji xarakterli vəzifələrin həll edilməsinə imkan yaradır.

Ümumi dövlət səviyyəsində iqtisadi inkişafın xarakteri xalis investisiya göstəricilərinin dinamikası ilə bağlıdır. Əgər xalis investisiyaların məbləği mənfi dəyər ölçüsü həcmindədirsə, istehsal potensialı, məhsul istehsalının həcmi aşağı düşür. Əgər xalis investisiyaların məbləği sıfır ətrafındadırsa, ölkənin istehsal potensialı dəyişilməz olaraq qalır.

Xalis investisiyalar müsbət dəyər ölçüsü həcmindədirsə, bu o deməkdir ki, iqtisadi inkişaf, geniş təkrar istehsal, o cümlədən istehsal potensialının təkrar istehsalı təmin olunmuşdur.

Lakin nəzərə almaq lazımdır ki, investisiya və iqtisadi proseslər makroiqtisadi səviyyədə (dövlət və regional) bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Bir tərəfdən investisiya resurslarının formalaşması ölkədə iqtisadi aktivlik göstəricilərindən asılıdır, digər tərəfdən investisiyaların bölgüsü ölkə iqtisadiyyatının vəziyyətinin dəyişilməsinə, həmçinin ekoloji və sosial proseslərə təsir göstərir.

Belə bir zəmində investisiyaların cəlb edilməsinin bir sıra müsbət effektləri-iqtisadi, sosial, ekoloji effektləri barəsində mühakimə yürütmək olar.

İnvestisiyaların iqtisadi effektləri aşağıdakılardır:
- modernləşdirməyə təsirin göstərilməsi;
- istehsalın həcminin artması;
- bazar rəqabətinin səviyyəsinin yüksəlməsi;
- ödəniş balansına müsbət təsir;
- investisiya infrastrukturasının inkişaf etməsi.

Modernləşdirmə prosesində müasir istehsal texnologiyalarının tətbiqi mühüm rol oynayır. İnvestorlar müasir və rəqabətədavamlı, keyfiyyətli məhsulların istehsal edilməsi üçün, istehsalın texnoloji səviyyəsinin yüksəldilməsi üçün mütərəqqi texnologiyalara külli miqdarda vəsait yatırırlar. Eyni zamanda investorlar müəssisələrdə əməyin təşkili və idarəetmənin müasir üsullarının tətbiq edilməsində maraqlı tərəf kimi əmək məhsuldarlığının yüksəldilməsinə ciddi təsir göstərirlər. Burada investor seçimi də öz rolunu oynayır (*mənfəət gətirən sahələrə investisiya yatırımlarıvə s.).*

İstehsalın həcminin yüksəlməsi perspektivi və həmin prosesdə investisiyaların rolu müəyyən ardıcıllıq baxımından nəzərdən keçirilir: "start-up investisiyaları-canlanma və istehsalın yüksəlişinin başlanması". İnvestisiyalar burada yüksəliş indikatoru kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, start-up investisiyaları iqtisadiyyatda ümumi canlanmaya, bu əsasda sənaye istehsalı sahələrinin investisiya cəlbediciliyinin yüksəlməsi üçün tələb olunur. Göründüyü kimi, investisiyalar iqtisadi proseslərin inkişafında mühüm rol oynayaraq iqtisadi artımın mühüm amillərindən biri kimi çıxış edir.

Ekoloji effekt resurslara qənaət edən texnologiyaların, istehsalat tullantılarının təkrar emalının təşkili, suyun və atmosferin təmizlənməsi texnologiyalarına investisiya yatırımları ilə əlaqədar özünü büruzə verir.

Qeyd etmək lazımdır ki, investisiya qoyuluşlarının bir sıra mühüm sosial effektləri də diqqəti cəlb edir. Bunlar aşağıdakılardır:
- əlavə iş yerlərinin yaradılması və işsizliyin azaldılması;





- əhalinin gəlir səviyyəsinin, alıcılıq qabiliyyətinin yüksəlməsi;
- əhalinin həyat səviyyəsinin yüksəlməsi;
- bütün səviyyələrdə büdcə vəsaitlərinin artmasının nəticəsi kimi sosial ödənişlərin artırılması.

## ƏDƏBİYYAT


1. Бланк И.А. Инвестиционный менеджмент. - Киев, МП "ИТЕМ", ЛТД, "Юнайтед Лондон Трейд Лимитед", 2000.
2. Карамышева А.Р. Инвестиции и их роль в развитии экономики // ТДР. 2009. №5. URL: https://cyberleninka.ru/article/n/investitsii-i-ih-rol-v-razvitii-ekonomiki (дата обращения: 11.06.2018).
3. Хомяков А.О. Анализ сущности инвестиций по классификационным признакам // ТДР. 2011. №12. URL:https://cyberleninka.ru/article/n/analiz-suschnosti-investitsiy-po-klassifikatsionnym-priznakam (дата обращения: 11.06.2018).
4. Шарп У. Инвестиции: пер. с англ. / У. Шарп, Г. Александер, Дж. Бейли. - М.: ИНФРА-М, 2009. - XII. - с. 1028.


*Шахла Ясин кызы Алиева*
*докторант, Азербайджанский Технологический Университет*

**Экономическая сущность и экономические эффекты инвестиции в контексте теоретических исследований**

*Резюме*

В статье оценивается влияние инвестиций на экономические процессы, происходящие в обществе. Кроме того путем проведения теоретических исследований выявляются экономическая сущность, типы и функции инвестиций, эффекты которых создает в экономической жизни общества. Также рассматриваются специфические особенности и экономические эффекты инвестиций, инвестиционного процесса, определены на макро и микро уровне функции инвестиций.

***Ключевые слова: инвестиции, капитал, финансы, капиталовложения, фонд.***

*Shahla Yasin Aliyeva*
*PhD student of Azerbaijan Technological University*

**The economic essence and economic effects of investment in the context of theoretical research**

*Summary*

The article investiqated the influence of investment on the economic processes which taking place in society. In addition, considered theoretical studies, the economic essence, types and functions of investments, the effects that create in the economic life of society are revealed.

Also, investigated specific features and economic effects of investment, investment process in society. Defined on the macro and micro level investment functions.

***Key words: investments, capital, finance, capital investments, fund.***